# MƏNBƏŞÜNASLIQ

https://doi.org/10.59849/2410-5600.2025.2.80
UOT: 930.85.

**Könül Sadıqova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: k1o1n1u1l@gmail.com*

## "MİRATUZ-ZAMAN" ƏSƏRİNDƏ AZƏRBAYCAN ŞƏHƏRLƏRİ: MƏNBƏŞÜNASLIQ VƏ TARİXİ TƏHLİL

### Xülasə

"Mirʾātü'z-Zamān" əsərində adı çəkilən Azərbaycan şəhərləri tarixi, iqtisadi, strateji və mədəni baxımdan əhəmiyyət kəsb edir. Aparılan müqayisəli təhlil göstərir ki, digər klassik ərəb mənbələrində Azərbaycan əraziləri xüsusi diqqət və dəqiqliklə təqdim olunmuşdur. Bu tədqiqat Azərbaycan şəhərlərinin tarixi kontekstini daha dərindən anlamaq və orta əsr ərəb coğrafiyaçılarının baxışlarını müqayisəli şəkildə qiymətləndirmək baxımından əhəmiyyətlidir.

***Açar sözlər:*** *Azərbaycan şəhərləri, əlyazma, Təbriz, Gəncə, Naxçıvan, tarixşünaslıq*

### Giriş

*Orta əsr İslam tarixşünaslığının görkəmli nümayəndələrindən olan Sibt ibn əl-Cövzi (v. 654/1256) tərəfindən qələmə alınmış "Mirʾātü'z-Zamān fī Tārīxi'l-Aʿyān" əsəri təkcə elmi və ictimai xadimlərin bioqrafiyalarını deyil, eyni zamanda müxtəlif bölgələrin tarixi və coğrafi xüsusiyyətlərini də əks etdirən zəngin bir mənbədir. Əsərdə qeyd olunan yer adları arasında Azərbaycan şəhərləri də diqqətəlayiq yer tutur. Bu fakt, həm də Azərbaycanın o dövrdə islam coğrafiyasında tutduğu mühüm mövqeyin göstəricisidir.*

Xilafət dövründə Azərbaycanın iri şəhərlərindən Marağa, Ərdəbil, Mərənd, Bərdə, Təbriz, Bakı, Şamaxı, Şirvan, Gəncə, Şəmkir, Beyləqan və başqaları mühüm şəhərlər sırasına daxil idi. Cənubda Marağa, şimalda Bərdə ərəb canişinliyinin iqamətgahı idi [8, s.25].

Erkən orta əsrlərdə Sasani dövləti öz dayaqlarını möhkəmləndirmək üçün İrandilli tatları Azərbaycana köçürür. Daha sonra Xilafətin istilaları nəticəsində çoxlu sayda ərəb tayfaları ölkəmizə köçürüldü. Həmin dövrdən etibarən Azərbaycan ərazisində kənd adları ərəblərə məxsus etnonimlərlə adlanmağa başlandı. Ölkəmizdə ərəblərin hakimiyyətə gəlməsindən sonra qədim Alban şəhərləri Qəbələ, Şəki, Amaras beynəlxalq ticarətdə öz mövqelərini itirmiş, Bərdə, Ərdəbil, Marağa, Dərbənd, Gəncə və Şamaxı bu ticarət yollarında aparıcı mövqelər əldə etmişdilər [9, s.92]. O dövrlərdə səyyahlar **Bərdə şəhərini** xüsusi qeyd edirdilər. Bu isə təsadüfi deyildi. Çünki ərəblərin hakimiyyət illərində Bərdə ərəb xilafətinin Cənubi Qafqazda yaratdığı ən böyük canişinliyin mərkəzi hesab olunurdu. Təbii ki, bu amil Bərdəyə təkcə bütün Cənubi Qafqazın siyasi mərkəzi deyil, həm də ən iri ticarət və sənətkarlıq mərkəzinə çevrilməsinə səbəb olurdu. Hər bir tarixi qədim şəhərin adının etimologiyası tədqiqatın obyekti olaraq çox maraq doğurmuşdur. Bu baxımdan Bərdə şəhərinin adı da diqqəti öz üzərində cəmləşdirə bilir. "Bərdə" sözünün farsca hərfi tərcüməsi "qul" olsa da, "bar", böyük məhsul, eləcə də yaxşı və qazanclı mənasında olan "bərdədar" mənasında işlənir. Onu da qeyd

edək ki, Bərdə sözünün kökü ərəbcə "bərd"dir ki, onun da bir mənası daş, digər mənası isə soyuq, sərin deməkdir [8, s.13]. **Əbd-ər-Rəşid əl-Bakuvi** orta əsr tarixçisi və coğrafiyaşünası kimi "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri" adlı əsərində "Bərdə" haqqında məlumatlar vermişdir. O vurğulayır ki, Bərdə Arranda bir şəhərdir hansı ki, o Şah Qubad tərəfindən tikilmişdir [7, s.105]. "Miratuz-zamanın" tərcüməsi zamanı Azərbaycana aid şəhər adlarından biri kimi Bərdənin adı da tez-tez çəkilir. Bərdə şəhərinin adına nümunə olaraq: "*Cərrah Bərzəadan (Bərdədən) qayıtdı. Savalan dağının ətəyinə (yaylağına) endi, yaxınlıqda çay da vardı. O orada öz qəsrini tikdirdi. İndiyə qədər həmin qala Cərrah qəsri adlandırılır."* [19, s.11]. Doqquzuncu Əməvi Xəlifəsi Yəzidin (h. 101-105/720-724) Ərminiyəyə hakim təyin etdiyi əl-Cərrah Abdulla əl-Hakəmi Ərminiyə sərhəddindən 4 fərsəx (təx. 28-30 km.) aralı xəzərlərlə 3 gün döyüşdən sonra həlak olmuşdur. Əl-Bəlazuriyə görə, bu münasibətlə həmin çay "əl-Cərrah çayı", üzərindəki körpülərdən biri isə "əl-Cərrah körpüsü" adlanır [15, s.307]. 730-731-ci ildə Xəzərlər və başqa türk tayfaları xaqanın oğlunun başçılığı ilə 300 minlik qoşunla Dərbənd, Dəryal və başqa keçidlərdən Azərbaycan ərazisinə girib, yolları üstündə olan şəhər və kəndləri yandırmağa, hər yeri qarət etməyə başladılar. Kömək ala bilməyən əl-Cərrah Şəki vilayətindən çıxaraq Bərdəyə, oradan Beyləqana yollanır, sonra Araz çayını keçərək, Varsan və Bacarvan vasitəsilə Ərdəbilə yetişir. Burada düşərgə salan əl-Cərrah kiçik həmlələrlə xəzər dəstələrinə hücumlar edir, sonra isə yenidən Ərdəbilə qayıdır [12, s.50]. Cərrah b. Abdullah h.730-cu ildə Ərdəbil yolu üzərində Xəzərlər tərəfindən öldürülür [20, s.18]. Bu barədə Sibtin əsərindən yazdığı məlumat belədir: *"h.112-ci il. (730-731) Bu ildə Muaviyyə ibn Hişam əs-Saifə döyüş etdi və Rum ölkəsini yağmaladı. Cərrah ibn Abdullah Hakəmi Ərdəbil qalasında şəhid oldu. Türklər Ərdəbili fəth etdilər."*[15, s.5].

Xilafətin zəifləməsi ilə Bərdə şəhəri Cənubi Qafqazda inzibati mərkəz rolunu itirsə də əvvəlcə Sacilərin və 942-ci ildən Salarilərin əsas şəhərlərindən birinə çevrilmişdi. Bərdə şəhərinin yüksəlişi X əsrin ikinci yarısına qədər sürdü. Burada IX əsrdə böyük binalar – dini, ictimai və yaşayış binaları tikilərək, Bərdəni möhtəşəm bir şəhərə dönüşdü. 1322-ci ildə Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvani vasitəsilə tikilmiş Bərdə türbəsi bu abidələrdən ən maraq doğuranıdır [11, s.380].

**Gəncə şəhəri** Bərdənin tənəzzül etməsindən sonra Arran vilayətinin mərkəzi şəhərinə çevrildi. Şamaxı (əl-Yəzidiyyə), Şəmkir (əl-Mütəvəkkiliyyə), Bakı, Marağa, Urmiya, Ərdəbil bu dövrün mühüm sənət, ticarət və mədəniyyət mərkəzləri idilər. Qızoğlu öz əsərində Gəncə adını müxtəlif yerlərdə çəkir. Bunlara daha çox erkən orta əsrlərə aid olan cildlərdə rast gəlmək olar. Sibt ibn əl-Cövzi Gəncə haqqında bunları xüsusi qeyd etmişdir: "Cənzə Arranın ən böyük şəhəridir. O Şirvan və Azərbaycan arasında yerləşir. Ümumilikdə "Kanca" (كنجة) adlanır [18, s.226].

Sultan Toğrul bəy dövründə Azərbaycan və Arran hələ də tam şəkildə Böyük Səlcuq dövlətinin bir əyalətinə çevrilməmişdi, sadəcə, vassal bir ölkə idi. Ancaq yenə də onun dövründə oğuz-türkmənlərin Gəncə mərkəz olmaqla, yavaş-yavaş Arran və Azərbaycanın suyu bol yaylaqlarına yerləşməyə başladıqları məlumdur. Qaynaqlar tam xatircəmliklə, inamla Kürboyu vilayətlərdə türklərin hökmranlığını xəbər verirlər. Bu iqamətlərdən biri də Gəncə idi. Həmin dövrlərdə şəhər Gəncə yox, Qança və ya Kançə adlanmışdır [6,s.22]. Əsərdə Gəncənin adı çəkilən tarixi hadisələrə qısa nəzər salmaq lazımdır. İlk diqqəti çəkən Sultan Alp Arslanın hakimiyyəti dövründə Gəncə hakimi olan Şavurun ölümü ilə baş verən gedişatı izləmək olar. Bu hadisə barəsində Sibt ibn əl-Cövzi də ətraflı məlumat vermişdir. Tərcümələrdən bu nəticəyə gəlmək olar ki, 460-cı ilin rəbiuləvvəl ayında (1068-ci il yanvar) Bağdada belə xəbər gəldi ki, Sultan Alp Arslan Cənzəyə tərəf yönəldi. Nizamülmülk buranın hakimi Fəzlun b. Əbu-l Əsvarın yanına gedib onu şəhərdən çıxartdı. Çox keçmədən Fəzlun sultana itaət və xidmət məqsədilə onun hüzuruna çıxdı və sultan ona icazə verdikdən sonra yenidən Cənzəyə qayıtdı. Daha sonra Fəzl sultana hədiyyə olaraq 1000 dəvə, 50 at, qızıl və gümüşlə işlənmiş müxtəlif növ parçalardan hazırlanmış 500 geyim dəsti, üzərindəki ağac şəkilləri, ağırlığı 100 min misqal olan qızıldan, meyvələri isə yaqut və müxtəlif mücəvhərlərdən ibarət olan bir miniatür bağça təqdim etdi [19, s.153]. Əsərdə adı çəkilən Cənzə Şəddadilərin paytaxtı Gəncə idi. Sultan şəhərə daxil oldu və burada bir neçə qalanı tutdu. Lakin qış fəslinin olduqca sərt keçməsinə görə səlcuqlu ordusu hərəkət edə bilmədi və bir müddət Qars şəhərində qalandan sonra Tiflisə daxil oldular və sultan buranı tutaraq bir məscid tikilməsini əmr etdi [1, s.46]. Gürcü hökmdarı IV Baqrat

da Səlcuq tabeçiliyini qəbul edib, bac verəcəyinə söz verdi. Qışı Kartlidə qalan Alp Arslan yaz öncəsi Gəncə və Bərdədən keçib, Xorasana gedir. Sultanın Tiflis və canişini isə Şəddadi əmiri II Fəzl idi [1, s.380]. Bu hadisə 7 cildlik Azərbaycan tarixinin 2–ci cildində geniş formada yazılmışdır, lakin baş verən hadisələrin iştirakçısı kimi II Fəzldən bəhs edilir [1, s.384], ancaq Cövzinin əsərində hadisələrin iştirakçısı II Fəzl yox, məhz onun oğlu Fəzlun olaraq bildirilir – Fəzlun b. Əbul Əsvar. "Miratuz–zaman"da bu hadisələri belə təsvir etmişdir ki, çox keçmədən sultan əl-Lana yürüş edib, lakin qarın çox yağması səbəbi ilə bir çox əsgər, heyvan və çadırlar tələf olurdu, buna görə də sultan yenidən Cənzəyə qayıtdı, bu arada Tiflis əmiri İbn Cəfər sultanın hüzuruna çıxıb, ona pul və at təqdim etmişdir, lakin Fəzlun yenidən Tiflisə gəlib sultana külli miqdarda pul verdi və bu səbəbdən də sultan Tiflisi ona verdi, Tiflis şəhərinin əmiri olan İbn Cəfər isə sultanın sarayında xidmətə başladı. Daha əvvəl sultan gürcü məliki Baqratın bacısı qızı ilə evlənmiş, sonra onu boşamışdır və Fəzlun onunla evlənərək Cənzəyə gətirmişdir [23, s.154].

Əsərdə Gəncə haqqında verilən növbəti məlumat həmin dövrlərdə (1078/79) Tacüddövlə Tutuşun Gəncədə və Bərdədə yaşaması ilə bağlıdır. Sibt belə qeyd edir: "*Sultan Məlikşahın qardaşı Tutuş Hələb şəhərinin mühasirəsindən ayrıldıqdan sonra (1078 il dekabr–yanvar) Fərat çayını keçərək "Bariyyə" deyilən ərazidə gecələdi. Ağıllı və işini bilən hökmdarlardan biri olan Tutuş Cənzə (Gəncə) və Bərdədə yaşayırdı"* [19, s.226]. Bu məlumatlar əsərin XIX cildində verilmişdir. Daha sonra əsərin Livanda nəşr edilən XX cildində (cild h.500-553/1106-1159-cü illəri əhatə edir) Gəncənin adına rast gəlmək olar. Hicri 524-cü ilin zil-hiccə ayında (noyabr, 1130) Məsud qardaşı Mahmuda qarşı yenidən qiyam qaldırdı. Ancaq qardaşlar Kirmanşahda görüşüb, dinc barışıqla ayrıldılar. Məsud Gəncəni və ətraf nahiyyələri ilə birlikdə iqta payı götürüb, 150 min dinarlıq hədiyyə aldı və qoşunları ilə Gəncəyə qayıtdı. Hələ hicri 521-ci ildən Arranı öz idarəsi altına keçirən Qara Sunqur bu vaxt şahzadələrdən Məsudla Toğrulun atabəyi idi. Məsud tərəfdən öz təhlükəsizliyini təmin edən Sultan Mahmud Sultan Səncərə qarşı münasibətində özünü daha müstəqil aparmağa başladı [18, s.187]. Salnamənin XX cildində Gəncə zəlzələsini xüsusi olaraq işıqlandıran Cövzi, zəlzələnin h.533(1138-1139 cü ildə baş verdiyini yazır; "Zəlzələ bu ildə oldu. Cənzə Arranın ən böyük şəhəridir. O Şirvan və Azərbaycan arasında yerləşir. Ümumilikdə "Kanca" (كنجة ) adlanır." Müəllif istinad olaraq "Mucamu-l Buldan" əsərini vermişdir. Daha sonra qeyd edir: "zəlzələ Gəncə və onun yaxınlığında 10 fərsəxlikdə baş verdi. Orada 200-300 min adam həlak oldu. Ölkənin torpağı qara suya döndü. Həmin yerdən olan tacirlər gəldilər. Onlar həm öz əhalisinə görə, həm də mallarına görə çox ağladılar. Ibn Qalanisi deyirdi ki, o sanki dünya üzrə baş vermişdi. O ən böyük zülüm idi. 80 dəfə oldu. Ölkə şurlarına, qala bürclərinə qədər hər yeri dağıtdı." [18, s.313]

Xilafət dövründə əsas şəhərlərdən biri **Ərdəbil şəhəri** idi. Məlumatlara görə ilk məscid də 656-657-ci illərdə Hz. Əlinin hakimiyyəti illərində Ərdəbildə tikilmişdir [5, s.166-167]. "Miratuz-zaman" əsərində da bu qədim Azərbaycan şəhərinin adı tez-tez çəkilir. Bunlar xüsusilə xilafət dövrünə aid cildlərdədir. Məsələn: *"Cərrah ibn Abdullah Hakəmi Ərdəbil qalasında şəhid oldu. Türklər Ərdəbili fəth etdilər."* [15, s.5]. Şəhərin əhəmiyyətini qeyd edən Yaqut əl-Həməvi islamdan əvvəl ölkənin paytaxtı olduğunu vurğulayıb. Ərəb hakimiyyətinin ilk dövründə (VII əsrin 40–ci illərinədək) bu şəhər xilafət canişinlərinin Azərbaycandakı iqamətgahı olub. Daha sonra, X əsrin əvvəllərində Sacilər dövlətinin paytaxtı Ərdəbil şəhəri oldu. Bu dövrdə Ərdəbil şəhər darvazası və qala divarları ilə əhatə olunmuşdu. Əl–Bakuvi Ərdəbil şəhəri haqqında məlumat verərək bildirir ki, bura münbit torpağı, təmiz suyu və səfalı iqlimi olan bir şəhərdir. Şəhər Firuzşah tərəfindən salınıb. O, qeyd edir ki, şəhər ətrafında çoxlu çayların axmasına baxmayaraq, şəhər ətrafında meyvə ağacları yoxdur. Ərdəbil dəniz sahilinə iki günlük məsafədə yerləşirdi [19, s.34, 3, s.73].

VIII əsrdən başlayaraq Xilafətin canişini Mərvan ibn Məhəmmədin (732-744) dövründə **Marağa şəhəri** Xilafətin canişinlik mərkəzi idi və qala divarları ilə əhatə olunmuşdu. Qoşunların çoxu da məhz bu qalada yerləşdirilmişdi [2, s.94]. Xilafətin süqutundan sonra Marağa bir müddət Sacilər dövlətinin paytaxtı oldu və bu vəsilə ilə daha da inkişaf etdi. Mənbələrdə Məhəmməd İbn Əbu Sacın ərəb Həmdanilər nəslindən olan Marağa hakimi Abdullaha qarşı döyüşməsi, şəhəri mühasirə edərək, onu ələ keçirməsi və, nəhayət, şəhərin hakimini qətlə yetirməsi haqqında məlumat verilir. Müqayisəli təhlil Marağada möhkəmlənməklə Azərbaycan vilayətinin idarəsini əlinə alan

Məhəmmədin bundan sonra ərəb canişininin Bərdədəki sarayında bölgənin valisi vəzifəsini icra etməyə başladığını göstərir [14, s.187]. "Miratuz-zaman" da belə təsvir edilmişdir: "*h. 280/883-884-cü ildə uzun bir muhasirədən sonra Əbu Sac Məhəmməd Marağanı fəth etdi. Oradan çoxlu mal-dövlət yığdı. Orda Cəfər əl Məfavvad öldürüldü. O xəlifənin nədimi idi"* [20, s.170].

"**Qapılar qapısı" (Bab-əl-Əbvab)** kimi tanınan **Dərbənd** VIII–X əsrlərdə Azərbaycanın şimal əyalətlərində islam dininin yayılma nöqtəsi olmuşdur. Azərbaycan xalqı yeni dini (islamı) təbii ki, dərhal və şərtsiz qəbul etmədi. Əsrlər boyu İslamdan öncəki dinlərə və dini inanclara bağlı olan Azərbaycan xalqı yeni dini tanıması üçün vaxt tələb olunurdu [2, s.92]. Qədim türklər, o cümlədən oğuzlar ümumtürk məkanının şimalı ilə cənubunu, yəni Qıpçaq düzü ilə Cənubi Qafqazı əlaqələndirən keçidi yəni, "Dəmir qapını" daim öz əllərində saxlamağa çalışırdılar. Hazırki dövrdə də yadellilərin "Dərbənd" adlandırdıqları bu keçidin qədim türk adını Azərbaycan xalqı öz şifahi ədəbiyyatında – nağıllarında, dastanlarında, bayatılarında "Dəmir qapı – Dərbənd" kimi qoruyub saxlamışdı [10, s.7]. Xəzər dənizi sahilində yerləşən Dərbənd, həmçinin həmin dövrün ən böyük liman şəhəri idi. Əl-İstəxri özünün "Kitab məsalik əl məmalik" əsərində Dərbənd limanı haqqında məlumat vermişdir. O yazır: *"Bab əl-əbvab şəhəri dəniz sahilindədir. Gəmilər üçün mərkəzdə liman çəkilmişdir. Gəmilər daxil olması üçün yer dardır. Giriş isə çox girintili–çıxıntılıdır.* [1, s.105]. "Miratuz-zaman" əsərində bir neçə yerdə şəhərin adı keçir. Birinci dəfə üçün h.32/652-653 ci il hadisələrindən yazarkən Sibt ibn əl-Cövzi Bab əl-Əbvab adını çəkərək qeyd edir : "*Həmin ildə Abdur-Rəhman b. Rəbiənin rəhbərliyi ilə Bələncər yaxınlığında döyüş oldu. O Bab-əl-Əbvabdan (Dərbənd K.S.) yaxınlaşdı, Səid b. əl-Asdan kömək istədi. Ona Həbib ibn Məsləmə əl Fihri kömək etdi. O Bələncərə yaxın getdi və oranı mühasirəyə aldı, mincanaqlar qurdu. Türklər gəlib çatdılar, onlar ona qəsd etdilər. Bu barədə deyilir ki, həqiqətən də xalq Abdur- Rəhmanın cənazəsini götürüb mərmər qutuya qoyub özləri ilə apardı"* [22, s.487].

**Naxçıvan** haqqında ilk orta əsrlər tarixinə aid olan qaynaqlara (IV-XII əsrlər) nəzər salanda müxtəlif məlumatlarla rastlaşmaq olar və bu mənbələr kifayət qədər araşdırılmışdır. Bunlardan Əbu Məhəmməd Əhməd ibn Əsəm əl-Kufi "Fəthlər kitabi", Əl-Bəlazuri "Ölkələrin fəthi", Əl-Yaqubi "Tarix", əl-Qəlqəşəndi "Sübh əl-əşa fi sınat əl-inşa", Fəzlullah Rəşidəddin "Cəmiət-təvarix", Musa Kalankatuklu "Ağvan tarixi", Mxitar Qoş "Alban salnaməsi", Əl-İstəxri "Məmləkətlərin yolları kitabı", Sədrəddin əl-Hüseyni "Səlcuq dövləti haqqında xəbərlər" və başqa ərəb və fars dilində yazılmış bir çox mənbələrin adlarını çəkmək olar. Adı çəkilən müəlliflərdən bəziləri Naxçıvanı Nəşava adlandırmışlar. Bəlazurinin yazdığına görə, Nəşava Büsfurrcan nahiyəsinin əsas şəhəridir. Burada qəsrlər tikilmişdir."Hüdud əl-aləm" əsərində Naxçıvan, Xoy, Bərgəri, İxlat şəhərlərinin nüfuzlu, zəngin və bu şəhərlərdə tacirlərin çox olduğu göstərilir. Bəlazurinin yazdığına görə, Nəşava Sasani şahı Ənuşirvan dövründə tikilmişdir. Sibtin əsərində bir neçə yerdə "Naqcəvan" (نقجوان) olaraq adlandıran müəllif Sibt ibn əl-Cövzi buraya səlcuqların ilk yürüşlərinin hökmdarlarından Sultan Toğrul bəyin hakimiyyəti illərində olduğunu yazmışdır. Cövzi bunları qeyd edir: "Sonra sultan Toğrul Anadoluya yaxın Naxçıvana getdi. Buranın səlcuqlara tabe olan valisi Əbu Duləf b. əs-Sakar əş-Şeybani idi." [19, s.354] Müxtəlif mənbələrə əsasən demək olar ki, Əbu Duləfin, ümumiyyətlə Dulafilərin hakimiyyəti dövrünün, X-XI əsrlərdə Naxçıvan tarixinin ən parlaq dövrü olmuşdur. Müəllif XIII əsr hadisələrindən bəhs edərkən Naxçıvanın adını hallandıraraq yazır ki, *h.625/1227-1228-ci illərdə Cəlaləddin Xarəzmi ikinci dəfə Xalət tərəfə enir və qış olduğuna görə oradan Azərbaycana yola düşür Xoy, Səlmas və Naxçıvanı ələ keçirərək, bu Xərəzmə geri döndü* [18, s.294]. Belə nəticələndirmək olar ki, qədim türk yurdu olan Naxçıvan torpağı orta əsrlərdə də təkcə Azərbaycanın deyil, ümumilikdə, Qafqaz və Mərkəzi Asiya regionunun ən qədim tarixə malik ərazilərindən biridir

**Dəbil şəhəri** Azərbaycan türklərinin ən qədim şəhərlərindən biridir. Rus alimləri indiki Ermənistanın ərəb əlyazmalarına əsaslanaraq şəhəri "Dvin–Dvin" adlandırmışlar. Qədim ərəbdilli müəlliflərdən biri olaraq Cövzi, şəhəri Dəbil olaraq adlandırmışdır, h.237/851-52-ci il hadisələrindən bəhs edərkən Dəbil şəhərinin adını çəkir [21, s.46]. Onu "mədinətun min əl-muduni-l ərməniyyəti" adlandırır. Müxtəlif mənbələrdən də məlumdur ki, Albaniya ərəblər tərəfindən Arran (Ər-ran) adlanmağa başlandığından "Ərminiyyə" adlı yeni ərəb inzibati adı meydana gəldi. Bu adla tanınan

əraziyə müasir Ermənistan, həmçinin Albaniya və İberiya torpaqları daxil idi. Yeni ərəb inzibati termininin adı çəkilən ölkələrə şamil edilməsi Bizans İmperatoru I Yustinianın (527-565) islahatları ilə formalaşmış, buna da səbəb "Bizans Ermənistanı" adlı inzibati vahidinin adı ilə bağlıdır. Ərəblər "Ərməniyyə" adını ilk vaxtlar şərtsiz qəbul etmişdilər. XI əsrdən etibarən "Ərminiyyə" termini öz aktuallığını itirməyə başladı. Çünki Xilafətin Bizansla olan müharibələrə başı qarışdı və Qafqaza olan diqqəti azaldı. Lakin həmin dövr tarixçilərinin öz əsərlərində bu termindən geniş formada istifadə etmələri, müasir ermənilərin yersiz torpaq iddialarına gətirib çıxartmışdır [13, s.22]. İlk ərəb tarixçilərindən biri kimi Sibt ibn əl-Cövzi də əsərində "Ərminiyyə" terminindən geniş şəkildə istifadə etmişdir.

X əsrin sonlarına qədər öncə o qədər də iri olmayan bir neçə Azərbaycan şəhərləri surətlə tərəqqi etməyə üz tutdular. Onlardan biri də **Təbriz** idi. "Təbriz" sözünün etimologiyası cari vaxtadək müəyyənləşdirilməmişdir. İran və Azərbaycanın bir neçə şəhər və kəndlərinin adları barədə uzun illər tədqiqat işi irəli sürmüş tədqiqatçılar "Təbriz" sözünün etimologiyası barədə bir nöqtəyə gələ bilmədiyini etiraf ediblər. Təbriz Azərbaycan Rəvvadilər dövlətinin paytaxtı edildikdən sonra daha surətlə tərəqqi etməyə başladı və ölkənin bir çox ənənəvi sənətkarlıq mərkəzlərini geridə qoydu və Azərbaycanın ticarət hüdudlarını bir nöqtədə birləşdirən və beynəlxalq karvan yolunun ortasında yerləşdiyinə görə X əsrin sonlarında daha Azərbaycanın ən geniş şəhərlərindən birinə döndü [11, s.36]. "Miratuz-zaman" əsərində Təbriz şəhərinin adı 19-cu cilddən etibarən çəkilir. Xəlifənin qızı ilə Sultan Toğrulun toy mərasiminin Təbriz şəhərində olması hadisəsini ətraflı şəkildə şərh edən müəllif şəhərin həmin vaxt olan vəziyyətindən bəhs edir [19, s.104]. IX əsrin ortasında Təbriz ticarət və sənətkarlıq mərkəzinə döndü. Zamanla rövnəq tapıb inkişaf edən şəhər artıq X əsrin ortalarında tanındı. İbn Miskəveyh h. 330 (941–942)–cu il təzahürlərindən bəhs açarkən Təbrizi güclü hasara malik, sıx meşələrlə əhatələnmiş, bağçalı bir şəhər kimi təsvir edir. İbn Miskəveyh şəhər əhlinin mərd və varlı olduğunu ərt etdi. X əsrin axırlarında artıq Təbrizin adının iri şəhərlər sırasında çəkildiyini görürük. Əl–Müqəddəsi (986-1038) Təbrizin gözəlliyindən bəhs edərək bildirdi: *"Təbriz güclü şəhərdir... müsəlmanlar bununla fəxr edirlər. Onun mərkəzindən arxlardan su axır. Ətrafında ağaclar bir–birinə sarılır. Meyvələrin çoxluğu, qiymətlərin ucuzluğundan xəbər verək... şəhərin ortasında "Came" məscidi mövcud... onun gözəllikləri saysızdır. Təbriz və Muğan tam əlaqəlidir. Onların hər ikisi Riham və İslam ölkələrinin fəxri hesab edilir"* [11, s. 40].

Sibt ibn əl-Cövzi salnamənin 20-ci cildinin 238-ci səhifəsində Arranın adını çəkir və oranı Arraniyyə adlandırır. Sibt şahzadə Məsudun hakimiyyətinə aid məlumatları qeyd edərkən buranın adını çəkərək yazır: *"Məsud Araniyyədə idi. Araniyə ola bilsin ki, Arran"*. Burada Arranın coğrafi mövqeyini göstərir və qaynaq olaraq da Yaqutinin "Mucəmu-l buldən" əsərini verir [18, s.238]. Arran ölkəsi Əməvilər dövründə Albaniya Azərbaycanın şimal hissəsinə verilən addır. Şimali Azərbaycan ərəb qaynaqlarında ər-Ran/Arran olaraq qeyd edilir [24, s.125].

## Nəticə

*Orta əsr Azərbaycan şəhərlərində mədəniyyət xeyli inkişaf etmiş, IX–X əsrlərdə Təbriz Ərdəbil, Şamaxı, Bakı və başqa şəhərlərdə mədrəsələr fəaliyyətə başlamışdır. Mədrəsələrin getdikcə genişlənməsi kitabçılığın inkişafına da böyük təsir göstərmiş, mədrəsə kitabxanaları təşkil olunmuşdur. İslam dininin mərkəzi kimi məscidlərin mövqeyi möhkəmlənir, məscidlərdə toplanan dini kitabların sayı artmışdır. Bu baxımdan Azərbaycanlı mütəfəkkirlərin sayı getdikcə artırdı. Sibt ibn əl Cövzinin adı çəkilən əsərində orta əsr Azərbaycanlı mütəfəkkirlər haqqında məlumatlar mövcuddur; növbəti tədqiqatlarda həmin məlumatların ətraflı araşdırılması məqsədəuyğun olar.*

## Ədəbiyyat siyahısı:

1. Azərbaycan tarixi: [7 cilddə] / red. N.Vəlixanlı. – Bakı: Elm, – c.2. – 2007. – 608 s.
2. Bakıxanov, A. Gülüstani–İrəm / A.Bakıxanov. – Bakı: Elm, – 1991. – 304 s. 12

3. Bakuvi, Ə. Kitab təlxis əl–əsar və əcaib əl–malik əl–qəhhar / Ə.Bakuvi, tərc. ed., Z.Bünyadov . – Bakı: Şur, – 1992. – 176 s.13
4. Bərdə və bərdəlilər (biblioqrafik məlumat kitabçası) / elmi məsləhətçilər: Q. Hacıyev, Ə. Eyvazov, – Bakı: Nərgiz, – 2010. – 448 s.14
5. Çağlayan Y, Ərdəbil IX-X əsrlərdə // Turan Sam: Turan Stratejik Araşdırmalar mərkəzi, - 2023, c.15 № 58. 162-169 s.18
6. Əhmədov, F.Gəncənin tarixi yaddaşı / F.Əhmədov. –Bakı: Şirvannəşr, – 1998. – 196 s
7. Əliyeva, N. Azərbaycanda islam mədəniyyəti (VII-XIII) / Bakı: Elm və təhsil, – 2017. - 488 səh.25
8. Hacıyev, Q. Bərdə şəhəri coğrafi, siyasi və mədəni tarixi / Q. Hacıyev. – Bakı: Uni-print, – 2008. – 248 s.28
9. Qasımov, X. Orta əsrlərdə Azərbaycan mədəniyyəti / X.Qasımov. – Bakı: Qrifli, – 2008. – 448 s.38
10. Mahmudov, Y. Azərbaycan tarixi. İntibah dövrü: IX əsrin ikinci yarısı–XIII əsrin əvvəlləri / Y.Mahmudov. – Bakı: Altay dünyası, – 1996. – 84 s. 43
11. Onullahi, S. XIII–XVII əsrlərdə Təbriz şəhəri / S. Onullahi. – Bakı: Elm, – 1982. – 284 s. 52
12. Pənahov, T.M. Azərbaycanda üzümçülük / T.M Pənahov, V.S Səlimov, Ə.M. Zari. – Bakı: Müəllim, – 2010. – 224 s. 54
13. Piriyev, V. Azərbaycan tarixi–siyasi coğrafiyası / V.Piriyev. – Bakı: Müəllim, – 2006. – 148 s. 55
14. Şərifli, M.X. IX əsrin II yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri / M.X.Şərifli. – Bakı: Elm. – 2013. – 440 s. 63
15. سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات] / بيروت: الرسالة العالمية ,- 130ج.١١- ٢٠١٣. - ٤٩٦ ص.
16. سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان: [في ٣٢ مجلدات] / بيروت: الرسالة العالمية، - 127 **ج.٥** - ٢٠١٣ . -٥٣٤ ص
17. سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات] / بيروت: الرسالة العالمية، - 141**ج.٢٢**- ٢٠١٣.- ٤٢٩ ص.
18. سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات] / بيروت: الرسالة العالمية ، - 139 **ج ٢٠** - ٢٠١٣.- ٥٧٦ ص
19. سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات] / بيروت: الرسالة العالمية، - 138 ج.١٩- ٢٠١٣ . - ٤٧٠ ص
20. سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان: [في ٢٣ مجلدات] / بيروت: الرسالة العالمية ،- 134 ج.١٥- ٢٠١٣. - ٤٦٢ ص
21. الرسالة العالمية، - سبط ابن الجوزي يوسف قزاوغلي. مراة الزمان في تواريخ الاعيان:[في ٢٣مجلدات] / بيروت: 133 ج.١٤- ٢٠١٣ . -٤٧٧ ص
22. سبط ابن الجوزي يوسف قزاوغلي مراة الزمان في تواريخ الاعيان: [في ٣٢ مجلدات] / بيروت: الرسالة العالمية، - 127 ج.٥ - ٢٠١٣ . -٥٣٤ ص
23. شمس الدين ابن المظفر يوسف بن قزاوغلى سبط ابن الجوزي. مراة الزمان في تواريخ الاعيان.- انقرة: مطبعة لجمعية التاريخية التركية، - ١٩٧٨- ٢٧٥ ص 143
24. شهاب الدين ابي عبدالله ياقوت بن عبد الله الحموي الرومي البغدادي .معجم البلدان: بيروت:دار الصدر, ١٩٨٨-٥٤٤ ص

**Konul Sadigova**

**Cities of Azerbaijan in Miratuz-Zaman: Source studies and historial analysis**

***Summary***

The cities of Azerbaijan mentioned in *Mirʾātü'z-Zamān* are historically, economically, strategically, and culturally significant. Comparative analysis indicates that other classical Arabic sources present the territories of Azerbaijan with particular attention and precision. This study contributes to a deeper understanding of the historical context of Azerbaijani cities and offers a comparative evaluation of the perspectives of medieval Arabic geographers.

***Keywords:*** *Azerbaijani cities, manuscript, Tabriz, Ganja, Nakhchivan, historiography*

*Tarix elmləri doktoru **Tahirə Həsənzadə***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*